# Azərbaycan Aİ-nin "Qlobal qapılar" layihəsində




**İsveçrənin Davos şəhərində təşkil edilən Dünya İqtisadiyyat Forumunun (DİF) illik toplantıları qlobal iqtisadi potensialın müzakirələrin ən nüfuzlusu sayılır. Azərbaycan Prezidenti İlham Əliyev intensiv olaraq bu toplantıda iştirak edir, dünyanın bir çox aparıcı şirkət nümayəndələri, eləcə də dövlət liderləri ilə görüşlər keçirir.**

DİF-in 56-cı toplantısında dövlət başçısının iş qrafiki hər zaman olduğu kimi, dinamikliyi ilə seçilib. Prezident burada həm ikitərəfli görüşlərdə, həm də tədbir və panel iclaslarda iştirak edib. Bu ölkəmizin iqtisadi potensialının və inkişaf strategiyasının beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Davosda keçirilən görüşlər qeyri-neft sektorunun inkişafı baxımından da olduqca vacib sayıla bilər. Azərbaycanın nəqliyyat-logistika imkanları, xüsusilə Orta Dəhliz üzrə layihələr, turizm və kənd təsərrüfatı sahələrində əməkdaşlıq perspektivləri müzakirələrin əsas mövzuları sırasında yer alıb.

Yanvarın 20-də "Euronews" telekanalının təşkil etdiyi "Azərbaycan rəhbərliyi ilə səhər yeməyi" adlı verilişdə dövlətimizin başçısı müxtəlif ölkələri təmsil edən biznes nümayəndələrinin suallarını cavablandırıb. Öncə, qeyd edək ki, belə bir telegörüşün keçirilməsində əsas məqsəd daşımalar, energetika və iqtisadi inkişaf üzrə regional qovşaq kimi Azərbaycanın artan rolunu araşdırmaq olub. Hökumət rəsmilərinin, biznes rəhbərlərinin və sərmayədarların iştirakı ilə keçirilən tədbir regional daşımalar, strateji sərmayə prioritetləri və ölkəmizin dayanıqlı inkişafla bağlı planlarını nəzərdən keçirməyə yönəlib.

Görüşdə çıxış edən Prezident İlham Əliyev bir çox məsələlərə, o cümlədən Azərbaycanın logistik imkanlarına diqqət çəkib: "Bizim Avropa İttifaqının "Qlobal qapılar" adlanan layihəsi haqqında məlumatımız var. Bu layihə Avropanı Mərkəzi Asiya ilə birləşdirəcək və əlbəttə ki, Azərbaycan burada önəmli rol oynayır. Bu vaxtadək biz əsasən öz nəqliyyat infrastrukturumuza - dəniz limanlarına, hava limanlarına, dəmir yollarına, magistrallara sərmayə yatırmağa nail olmuşuq. Beləliklə, demək olar ki, hər bir şey artıq hazırdır".

Azərbaycan Şərqlə Qərb arasında strateji körpü rolunu oynayır. Məhz bu səbəbdən Aİ-nin "Qlobal qapılar" layihəsində ölkə açar mövqeyində dayanır. Rəsmi Bakı regionun logistika arxitekturasını yenidən quran idarəedici mərkəz kimi çıxış edir. Avropa İttifaqının 2021-ci ildə elan etdiyi "Qlobal qapı" təşəbbüsü dünya üzrə strateji infrastruktur layihələrini öz təsir dairəsinə daxil etmək məqsədi daşıyır. Təşəbbüs çərçivəsində rəsmi Brüssel 2027-ci ilə qədər 300 milyard avroluq investisiya paketi formalaşdırmağı hədəfləyib və həmin investisiyaların əsas istiqamətlərindən biri də Avrasiya boyunca təhlükəsiz, siyasi risklərdən uzaq tranzit xətlərinin qurulmasıdır.

Bu kontekstdə Avropa üçün əsas çağırışlardan biri alternativ marşrutların formalaşdırılmasıdır. "Qlobal qapılar" təşəbbüsü çərçivəsində Azərbaycanın əhəmiyyəti strateji xarakter alır. Hazırkı geosiyasi şəraitdə Azərbaycanın marşrut kimi kənarda qalması faktiki olaraq, yüklərin sanksiyaların tətbiq olunduğu ərazilərdən daşınması deməkdir.

Mövcud olan digər iki alternativ istiqamət də Azərbaycanın şimal və cənub sərhədləri boyunca yerləşən, sanksiya rejiminin qüvvədə olduğu zonalardan keçir. Bu isə nə ixracatçılar, nə də istehlakçılar üçün məqbul və rahat hesab edilə bilər. Nəticə etibarilə formalaşmış vəziyyət onu göstərir ki, Avropanın Mərkəzi Asiya ilə dayanıqlı və təhlükəsiz bağlantı qurması baxımından Azərbaycan yeganə etibarlı, risklərdən uzaq və konstruktiv tranzit tərəfdaşına çevrilib.

Yeri gəlmişkən, həyata keçirilən nəqliyyat siyasəti imkan verir ki, Azərbaycan bu işlərin öhdəsindən gəlsin. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Xəzər hövzəsində ən böyük və müasir limanlardan biridir. Yaxın illərdə bu limanın buraxılış qabiliyyəti ildə 25 milyon tona qədər çatdırılacaq. Həmçinin Bakı–Tbilisi–Qars dəmiryolu xəttində yenidənqurma işləri, 9 beynəlxalq hava limanın istifadəyə verilməsi ölkəni materikin nəqliyyat qovşağına çevirib.

Cənubi Qafqazda davamlı sülhün bərqərar olması da regionun nəqliyyat və logistika potensialını keyfiyyətcə yeni mərhələyə yönəldir. Uzun illər münaqişələr və siyasi gərginlik səbəbindən reallaşmayan layihələr bu gün real perspektivə çevrilir. Bu kontekstdə xüsusi diqqət mərkəzində olan əsas məsələ Zəngəzur dəhlizinin (TRIPP) açılmasıdır. Qiymətləndirmələrə görə, Zəngəzur dəhlizi (TRIPP) istifadəyə verildikdə Çindən Avropaya daşımaların müddəti 2 dəfəyə qədər düşəcək, logistika xərcləri 35–40 faiz azalacaq.

Bu baxımdan Zəngəzur dəhlizi təkcə Azərbaycan üçün deyil, bütövlükdə region və daha geniş coğrafiya üçün strateji əhəmiyyət daşıyır. Bu dəhliz Şərqlə Qərbi, Mərkəzi Asiya ilə Avropanı birləşdirən yeni və daha qısa marşrutun əsas hissəsidir. Məhz bu səbəbdən layihə qlobal güclərin də diqqətini cəlb edir.

Zəngəzur dəhlizi artıq regional layihə çərçivəsindən çıxaraq beynəlxalq maraqlar müstəvisinə keçib. ABŞ kimi böyük dövlətlərin bu marşruta maraq göstərməsi onun geosiyasi və geoiqtisadi əhəmiyyətindən xəbər verir. Qlobal ticarət marşrutlarının təhlükəsizliyi, alternativ yolların yaradılması və sanksiya manеələrindən kənar nəqliyyat xətlərinin formalaşdırılması bu marağın əsas səbəblərindəndir. Məhz bu reallıq fonunda Azərbaycan etibarlı və məsuliyyətli tərəfdaş kimi ön plana çıxır. Rəsmi Bakı regionda sabitliyin və əməkdaşlığın əsas təşəbbüskarı rolunda çıxış edir.

***Musa BAĞIRLI***
***XQ***

***Ekspert rəyi***



**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**

"Qlobal qapılar" layihəsi yeni dövrdə Avropa ilə Mərkəzi Asiya arasında əlaqələrin daha da gücləndirilməsini nəzərdə tutan mühüm təşəbbüsdür. Burada söhbət Avropa ilə Mərkəzi Asiya arasındakı münasibətlərin həm iqtisadi, həm də siyasi baxımdan dərinləşdirilməsindən gedir.

Cənab Prezidentin Davos Dünya İqtisadi Forumunda da vurğuladığı kimi, Avropa ilə Mərkəzi Asiya arasında etibarlı və dayanıqlı körpünün yaradılması məhz Azərbaycan vasitəsilə mümkündür. Çünki Azərbaycan coğrafi baxımdan Mərkəzi Asiya ilə Avropa arasında təbii körpü rolunu oynayır.

Eyni zamanda, ölkəmiz Mərkəzi Asiya dövlətləri ilə sıx strateji əməkdaşlıq və qardaşlıq münasibətləri qurub. Paralel olaraq Azərbaycan Avropa məkanında da bir sıra ölkələrlə strateji tərəfdaşlıq və qarşılıqlı anlaşmaya əsaslanan münasibətlərə malikdir.

Digər tərəfdən, Azərbaycan regionda sülhü və sabitliyi təşviq edən, etibarlı və proqnozlaşdırıla bilən tərəfdaş kimi tanınır. Ölkəmiz üzərinə götürdüyü beynəlxalq öhdəlikləri ardıcıl şəkildə yerinə yetirir və artıq Orta Dəhlizin əsas halqalarından birinə çevrilib.

Bu baxımdan, Avropa ilə Mərkəzi Asiya arasında həm iqtisadi, həm də siyasi əlaqələrin genişlənməsi məhz Azərbaycan üzərindən real və praktik xarakter daşıyır. Azərbaycanın "Qlobal qapılar" təşəbbüsündə fəal iştirak etməsi də onu göstərir ki, ölkəmiz bu kimi beynəlxalq layihələrdə aktiv rol oynamaq niyyətindədir və bunu davam etdirəcək.

Cənab Prezidentin də qeyd etdiyi kimi, Azərbaycanın bu prosesdəki əhəmiyyətli rolu, əlverişli coğrafi mövqeyi, güclü iqtisadi göstəriciləri və balanslaşdırılmış siyasi xətti onu deməyə əsas verir ki, gələcəkdə Avropa ilə Mərkəzi Asiya arasındakı münasibətlərin daha da dərinləşməsi məhz Azərbaycan vasitəsilə mümkün olacaq.

Xalq qəzeti .- 2026.- 22 yanvar (№12).- S.20.